Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

# Sosial şəbəkələrdə sərhədsizlik informasiya təhlükəsizliyi problemini daha da böyüdür...

**Müasir dünyanın bizə gətirdiyi çox yeniliklər var ki, həyatımızı, fəaliyyətimizi onlardan kənarda təsəvvür edə bilmirik. Sosial şəbəkələr bu qəbildəndir. Sosial şəbəkələrdə, sosial mediada yayılan hər xəbərə, hər paylaşıma cəmiyyətin həssas yanaşdığını bilirik. Sosial şəbəkələrdə sərhəd anlayışı yoxdur, burada kim nə istəyir azad, sərbəst şəkildə paylaşa bilir.**



Bu məkanda normal xəbərdən tutmuş təhqirə, insan psixologiyasına ziyan vuran məlumatlara qədər hər cür informasiyaya rast gəlirik.

Ekspertlər hesab edirlər ki, sosial mediada yayımladığınız məlumatlar bizim təhlükəsizliyimizə təhdid yarada bilər. Məsələn, "Facebook" kimi bəzi sosial media hesabları üçün təhlükəsizlik parametrləri, "Twitter" və "Instagram" kimi digərlərində "Şəxsi" hesabı qurma imkanı mövcud olsa da, bloklanan informasiyanı əldə etmək istəyən insanlar çox vaxt bir yol tapa bilərlər. Ekspertlər belə deyirlər. Sosial şəbəkələrdə informasiya təhlükəsizliyini təmin edilməsi hələ də problem olaraq qalır. Çünki burada informasiya təhlükəsizliyinə riayət edilməsi çətin bir prosesə çevirilib.

Ekspertlər qeyd edirlər ki, onlayn sosial şəbəkələr istifadəçilərə zaman və məkan məhdudiyyəti qoymadan bir çox imkanlar təklif edir. Son illərdə onlayn sosial şəbəkə istifadəçilərində və mövcud məlumatların sayında hədsiz artım müşahidə edilir. "Onlayn sosial şəbəkələrin yayılması ilə bu şəbəkələrdə informasiya mübadiləsi də daim artan əhəmiyyətə malikdir. Onlayn sosial şəbəkələr əhalinin böyük seqmentinin həyatının daimi iştirakçısıdır və offlayn fəaliyyətlərinə də birbaşa təsir göstərir. Əlbəttə ki, bu da ciddi gizlilik və təhlükəsizlik riski yaradır". Bu barədə məqalələrdən birində qeyd edilib.

**Sosial şəbəkələrdə sərhədsizliyin fəsadları...**

Sosial şəbəkə siqmentlərinin sayının artığı, üfiqlərinin genişləndiyi çağda yaşadığımızdan biz çalışırıq ki, həm "Twitter" dən, "Instagram"dan, həm Telegram"dan, həm "Feysbuk"dan, "YouTube"dən, "Tik-Tok"dan və digər sosial şəbəkələrdən istifadə edək. Təbii ki, hər birindən də yetərincə informasiya ala bilirik. Hər sosial şəbəkə cəhd edir ki, xidmətlərin, yeniliklərin sayını daha da artırsın, çünki abunəçilərin sayının çoxluğu o sosial şəbəkənin həm biznes, həm işgüzar maraqlarını təmin edir. Sosial şəbəkələr arasında ciddi rəqabətin olduğu da sirr deyil. Ekspertlər deyirlər ki, müasir dövrdə yüzilərlə yazılı media var, saytlar, xəbər portalları mövcuddur. Bütün bunlar olduqları halda, insanların sosal mediaya marağı daha çoxdur. Müşahidə edilən odur ki, sosial şəbəkə istifadəçilərinin sayının artması bir sıra problemlərə səbəb ola bilər. Məsələn, qeyd edildi kimi informasiya təhlükəsizliyi anlayışını meydana çıxarır. Ekspertlər hesab edirlər ki, qitələri, ölkələri yaxın edən, elmi- texniki yeniliklərin öyrənilməsində, dünya hadisələri ilə bağlı informasiyaların yayılıb, təhlil olunmasında əvəzedilməz yeri və rolu olan sosial şəbəkələrin əsas vəzifəsi milli və informasiya təhlükəsizliyinin qorunmasıdır. Ekspertlərin qənaətinə görə,

demokratik islahatlar nəticəsində ölkəmizdə senzuranın ləğvi söz, mətbuat azadlığının təminatı üçün lazımi şəraitin yaratdı. Bu və müstəqil mətbuatın inkişafına dövlət dəstəyinin artırılması kimi amillər sosial şəbəkələrin məkan və əhatə dairəsini genişləndirdi. Bu gün internet resurslarından istifadənin qlobal xarakter aldığı müasir dünyamızda strateji vəzifə olan milli informasiya məkanının qorunması, operativliyin təminatına diqqəti artırmaqla, dəqiqlik tələb edir.

**"Sosial şəbəkələr sistemi elədir ki, onu tam olaraq nəzarətə götürmək mümkün deyil"**

Mövzu ilə əlaqədar "Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev "Bakı-Xəbər"ə şərhində bildirdi ki, sosial şəbəkələrdə, sosial mediada informasiya təhlükəsizliyini qorumaq çətindir və sosial şəbəkələrdəki sərhədsizliklər problemi daha da dərinləşdirir.

"Sosial şəbəkələr sistemi elədir ki, onu tam olaraq nəzarətə götürmək mümkün deyil. Nəzarətsiz buraxmaq da problemlər yaradır. Bəzən görürsən ki, milli maraqlara, dövlət maraqlarına, dövlətçiliyə xələl gətirən məlumatlar yayılır. Son vaxtlar görürsüz ki, hətta dövlət sirri, hərbi sirr sayılan informasiyalar da yayanlar olur. O insanlarla bağlı aidiyyatı qurumlar ölçü götürürlər. Təbii, müəyyən insanlar bunu bilməyərəkdən edirlər, bəziləri isə öz sevinc hisslərini göstərmək üçün belə paylaşımlar edirlər. Amma bütün hallarda ordumuzla, dövlətçiliyimizlə bağlı sirrlər qorunmalıdır".

Ş.Ağayev hesab edir ki, sosial şəbəkələr, sosial media mütləq mənada qaydaya salınmalıdır.

"Müasir texnologiyalar dövründə bu məlumatları verməklə biz Ordumuzun istinad nöqtələrini düşmənə veririk, ordumuz haqda sirrləri yayırıq. Bununla da özümüz haqda dezinformasiya yayılmasına xidmət edirik. Bəziləri də bu xəbəri bilərəkdən yayır, bu daha pis və daha təhlükəlidir. Bu baxımdan, sosial şəbəkələrdə informasiya təhlükəsizliyini təmin etmək çox çətindir. Hazırda bunu Baş Prokurorluq, Dövlət Təhlükəsizlik Xidməti və başqa güc strukturları istifadəçilərə xəbərdarlıq etməklə həyata keçirirlər. Sosial şəbəkələrdən milyonlarla insan istifadə edir, hamıya da xəbərdarlıq etmək mümkün də deyil. İlk növbədə vətəndaşların öz məsuliyyəti olmalıdır. Onlar öz məsuliyyətlərini düşünməlidirlər, Azərbaycanın milli dövlətçilik maraqlarını hər şeydən üstün tutmalıdırlar. İnsan birinci özü öz paylaşımına diqqət etməlidir. Ölkəmizə xələl gətirən məlumatları yaymaqdan çəkinməlidirlər. Hesab edirəm ki, hansısa bir formada, qanunvericilik çərçivəsində sosial şəbəkələrdəki problemləri qaydaya salmaq mümkündür. Bu qədər sərhədsizlik ciddi problem yaradır, informasiya təhlükəsizliyin təmin edilməsi üçün tədbirlər görülməsi zəruridir" - deyə Ş.Ağayev qeyd etdi.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**